# STRATEJİ TƏHLİL, PLANLAŞDIRMA VƏ KADRLARIN İDARƏOLUNMASI SAHƏSİ ÜZRƏ 2010-CU İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsi öz fəaliyyətində Azərbaycan Respublikası qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, digər normativ-hüquqi aktları, təhsil nazirinin əmr və sərəncamlarını və şöbənin Əsasnaməsini rəhbər tutaraq təhsil strategiyasını müəyyənləşdirir, təhsil siyasətinin və prioritetlərinin formalaşdırılması üzrə təkliflər hazırlayır, təhsil sisteminin səmərəliliyi ilə bağlı məlumatları təhlil edir, bütün struktur bölmələrin və təhsil müəssisələrinin fəaliyyətinin strateji və fəaliyyət planlarının hazırlanmasında iştirak edir, təhsili idarəetmə orqanları və təhsil müəssisələri tərəfindən mövcud qanunvericiliyin yerinə yetirilməsinə təşkilati-metodik köməyi həyata keçirir.

Şöbənin hər bir əməkdaşına müvafiq sahələrin inkişaf etdirilməsi haqqında tapşırıqlar verilmiş, şöbənin Əsasnaməsinə müvafiq olaraq həmin tapşırıqların lazımi səviyyədə yerinə yetirilməsi, sənədlərin, hesabatların hazırlanması və icrasının təmin olunması, zəruri məlumatların toplanması üçün bütün imkanlardan səmərəli istifadə olunmuşdur.

Şöbə əsas fəaliyyət dairəsinə, həmçinin Nazirliyin 3 illik Strateji Planına (2010-2012-ci illər) əsaslanaraq, hesabat dövründə strateji təhlil və planlaşdırmanın müasir metodlarından istifadə edərək, idarəetmə mexanizminin təkmilləşdirilməsi sahəsində yerli təhsili idarəetmə orqanlarının fəaliyyətinin istiqamətləndirilməsi, eləcə də, Nazirliyin kadr siyasəti və strategiyası üzrə funksiyaların həyata keçirilməsi, davamlı inkişaf naminə təhsil siyasəti və strategiyasının, həmçinin, QHT və beynəlxalq təşkilatların layihələrinin həyata keçirilməsi, aparılan təhlillərin nəticələrinə əsasən strateji sənədlərin, hesabatların, islahat layihələrinin hazırlanmasında fəal iştirak etmişdir. Qeyd olunan sahələr üzrə həyata keçirilən tədbirlər və proseslər aşağıda öz əksini tapmışdır.

**I. İl ərzində strateji təhlil, planlaşdırma və idarəetmə sahəsində həyata keçirilən tədbirlər və proseslər.** 2011-ci il ərzində şöbə tərəfindən aşağıdakı işlər icra olunmuş, müvafiq proseslər və tədbirlər həyata keçirilmişdir:

**1.** Təhsil sisteminin ayrı-ayrı sahələri üzrə strateji təhlillərin aparılması, müxtəlif struktur bölmələr tərəfindən səmərəli həyata keçirilən işlərin əlaqələndirilməsi, mövcud idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə Təhsil Nazirliyində strateji planlaşdırma mexanizmi tətbiq olunmaqdadır. Buna müvafiq olaraq, strateji planlaşdırma mexanizminin inkişafı istiqamətində işlər davam etdirilmiş, Nazirliyin növbəti 3 illik Strateji Planı (2010-2012-ci illər) hazırlanmış və həmin plan Nazirliyin fəaliyyət planı ilə əlaqələndirilmiş, eləcə də, Strateji Plana daxil edilmiş və Təhsil Nazirliyi tərəfindən hazırlanmış bir sıra məqsədli inkişaf proqramlarına əsaslanan və müvafiq olaraq il ərzində nəzərdə tutulan məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

**2.** Təhsil sektorunda aparılan islahatların əhatə dairəsinin tamlığı və optimallığı, eyni zamanda, dünyada təhsilin inkişaf tendensiyaları barədə məlumatlar toplanmış, həmçinin, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (2009-2014-cü illər) həyata keçirilməsi məqsədilə "Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi" alt-komponenti üzrə Dünya Bankının heyəti ilə görüşlər keçirilmiş, müzakirələr aparılmış, eyni zamanda, qeyd olunan illərdə həmin alt-komponent üzrə həyata keçiriləcək tədbirlərin İcra Planı nəzərdən keçirilmiş, həmin plana dair müzakirələr aparılmış və həmin alt-komponentin İcra Planına əsasən cari ildə həyata keçirilən tədbirlər barədə yarımillik və rüblük hesabatlar hazırlanaraq Layihənin Əlaqələndirmə Qrupuna (LƏQ) təqdim edilmişdir.

**3.** 06 yanvar tarixində Təhsil Naziri yanında və Nazirliyin digər struktur bölmə rəhbərlərinin iştirakı ilə birgə şöbənin fəaliyyətinin qiymətləndirilməsi, şöbənin 2010-cu il ərzində gördüyü işlərə dair Hesabatın təqdimatına və şöbənin 2011-ci il üçün hazırlanmış İş Planının müzakirəsinə dair iclas keçirilmişdir.

İclas zamanı nazir şöbənin hər bir işçisi barədə təqdim olunan qiymətləndirmə sənədləri ilə əməkdaşları tanış edərək, bir-bir onları imzalamış, ayrı-ayrı işçilər barədə öz fikirlərini bildirmiş, hər bir əməkdaşa aid müəyyən nöqsan və problemləri, perspektivləri, eyni zamanda, müəyyən işçilərin ixtisas dərəcələrinin artırılması haqqında ümumi məlumat vermişdir. Həmçinin şöbənin 2011-ci il üçün hazırlanmış İş Planı nazir tərəfindən nəzərdən keçirilmiş və həmin planı təsdiqlənmişdir.

**4.** Şöbənin əməkdaşları "2010-cu ilin yekunları və 2011-ci ildə qarşıda duran vəzifələr" adlı kollegiya iclasının materiallarının hazırlanmasında və 27 yanvar 2011-ci il tarixində həmin kollegiya iclasında iştirak etmişlər.

Kollegiya iclasında 2010-cu ilin təhsillə bağlı mühüm hadisələrinə dair ümumi statistik məlumatlar, diaqramlar və cədvəllər, eyni zamanda son illərdə təhsilin inkişafı sahəsində əldə edilən nailiyyətlər, təhsil pillələri üzrə həyata keçirilən və 2011-ci ildə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, ölkədə kurikulum islahatının həyata keçirilməsi, həmçinin şagird nailiyyətlərinin qiymətləndirilməsi *(məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmə)*, 2010-cu ildə ali məktəblərə qəbulun nəticələri, istedadlı uşaqlarla iş, dərslik siyasətinin tətbiqi, kadr təminatı, de-institutlaşma, məktəbdənkənar təhsil, təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsili, orta ixtisas təhsili, ali təhsil, ixtisasartırma təhsili, beynəlxalq əlaqələr və xaricdə təhsil, ali məktəb elmi sahələri ilə bağlı təqdimat xarakterli hesabat verilmişdir.

**5.** Yanvar ayında "İnsan Hüquqlarının tədrisi" ilə əlaqədar 2011-ci dərs ilində görülən işlər barədə Ombudsman Aparatına hesabat hazırlanıb təqdim edilmişdir.

**6.** Yanvar ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Nazirlər Kabinetinə "Demoqrafiya və Sağlamlıq" sorğusu üzrə, Statistika Komitəsinə isə "Demoqrafiya və əhali sakinliyi" üzrə hesabatlar hazırlanmış təqdim edilmişdir.

**7.** Cari ilin yanvar ayında Beynəlxalq Miqrasiya təşkilatı və Təhsil Nazirliyinin birgə layihəsi çərçivəsində şöbənin əməkdaşı S.Məmmədova Gürcüstan Respublikasının Batumi şəhərində keçirilən Beynəlxalq konfransda iştirak etmişdir.

**8.** Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli, 80 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə cari ilin yanvar və iyul aylarında, ilk və son altı ayı ərzində görülmüş işlər barədə məlumat hazırlanmış və İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir.

**9.** "2008-2015–ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulan tapşırıqların icrasını təmin etmək məqsədilə cari ilin yanvar ayında Təhsil Nazirliyinin gördüyü işlər barədə məlumat hazırlanmış və Nazirlər Kabinetinə göndərilmişdir.

**10.** 05 fevral tarixində Təhsil Nazirliyi, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi ilə birgə həyata keçirilən "Səmərəli məktəb" layihəsi ilə bağlı iclas keçirilmişdir.

İclasda layihənin icrası istiqamətində həmin layihənin fəaliyyət planına müvafiq olaraq diaqnostik mərhələnin ilkin nəticələri, layihənin konsepsiya və komponentləri, həmçinin layihənin saytı təqdim edilmişdir.

**11.** 08 fevral tarixində Hyatt otelin "Quba" zalında "Peşə təhsili və təlimi sahəsində islahatlar strategiyası və Azərbaycanın seçilmiş rayonunda pilot icrası" layihəsi ilə bağlı keçirilən konfransda şöbənin əməkdaşı V.Əbdülrəhimov iştirak etmişdir.

Konfransda Təhsil Naziri "Azərbaycanda bacarıqlara olan ehtiyacın ödənilməsi: qarşəya çıxan problemlər, AzVET layihəsinin nailiyyətləri, Azərbaycanda ilk peşə-ixtisas təhsili sisteminin gələcəyi", AzVET layihəsinin rəhbəri və Beynəlxalq Ekspertləri xanım Ann Castis, Devid Hardi və Aleksander Siboni "AzVET layihəsinin nailiyyətləri", Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin Rəhbəri cənab Rolan Kobia "Avropa İttifaqı və Layihə", İsmayıllı Rayon İcra Hakimiyyətinin Başçısı Nizami Ələkbərov "İsmayıllıda pilot fəaliyyət", İmproteks Şirkətinin Vitse Prezidenti Vüqar Ələkbərov "Biznes sahəsində bacarıqlara olan ehtiyac", həmçinin Tacirlər və İstehsalçılar Birliyinin Prezidenti Sevgim Rəhmanov "Biznes sahəsində bacarıqlara olan ehtiyac" mövzuları üzrə çıxış etmiş və müzakirələr aparılmışdır.

**12.** 11 fevral tarixində orta təhsil kursu üzrə mərkəzləşdirilmiş qaydada IX və XI siniflərdə yoxlama imtahanlarının keçirilməsi ilə əlaqədar iclasda keçirilmiş və şöbənin əməkdaşları həmin iclasda iştirak etmişlər.

**13.** Orta təhsil kursu üzrə mərkəzləşdirilmiş qaydada IX və XI siniflərdə yoxlama imtahanlarının keçirilməsi məqsədilə şöbənin əməkdaşları V.Əbdülrəhimov, S.Abbasova və S.Məmmədova tərəfindən 12 fevral tarixində XI siniflər, 13 fevral tarixində isə IX siniflər üzrə yoxlama imtahanlarında iştirak edən nəzarətçilərlə görüşlər keçirilmiş, imtahan keçirilən mərkəzlərdə təşkilati işlərə nəzarət edilmiş və müəyyənləşdirilmiş mərkəzlərdə yoxlama imtahanlarına rəhbərlik funksiyası yerinə yetirilmişdir.

Yoxlama imtahanları başa çatdıqdan sonra həmin imtahanlara dair Hesabat hazırlamış, Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim etmişəm.

**14.** 24 fevral tarixində Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin monitorinq indikatorları ilə bağlı ilkin vəziyyətə dair ümumi sorğular və müşahidə xarakterli tədqiqatların nəticələrinə dair təqdimat xarakterli iclas keçirilmişdir. Həmin iclasda komponent və alt-komponent koordinatorları tərəfindən layihənin icra planında nəzərdə tutulan məsələlərin icrasına, layihənin nəticə indikatorlarına, həmçinin həmin indikatorlar üzrə tədqiqatların nəticələrinə dair təqdimatlar edilmiş və qeyd olunan istiqamətlərdə müzakirələr aparılmış və müvafiq tapşırıqlar verilmişdir.

**15.** 01-07 fevral tarixlərində keçirilmiş Ümumdünya Dinlərarası Ahəng Həftəsi ilə bağlı Təhsilin bütün pillələrində sülhün, qarşılıqlı hörmətin təbliği, tolerantlıq, həmcinin miqrant və milli azlıqların cəmiyyətə inteqrasiyası, digər ölkə və xalqların mədəniyyətləri haqqında düzgün informasiyanın təşviqi və öyrədilməsi istiqamətində Təhsil Nazirliyinin məlumatları hazırlanmış və fevral ayında Xarici İşlər Nazirliyinə təqdim edilmişdir.

**16.** Amerika Hüquqşünaşlar Assosiasiyası, Mərkəzi Avropa və Avrasiyada Hüquq Təşəbbüsü (ABA-CEELİ) təşkilatı və Təhsil Nazirliyinin respublikanın ümumtəhsil məktəblərində birgə həyata keçirdiyi "Canlı Hüquq" proqramı 2011-ci dərs ilində də davam etdirilmişdir.

17 Fevral 201i-ci il tarixdə Təhsil Nazirliyində Proqrama qoşulmuş ümumtəhsil məktəblərin rəhbərləri ilə iştirakçı tələbələrin təntənəli yığıncağı təşkil edilmişdir.

**17.** Azsaylı xalqların hüquqlarının qorunması, milli azlıqlara mənsub şəxslərə dövlət tərəfindən güzəştlərin verilməsi barədə məlumatlar hazırlanmış və fevral ayında Beynəlxalq əlaqələr şöbəsinə İrqçilik, Dözümlülük əleyhinə Avropa Komissiyasına (İDAK) və Azərbaycan Respublikası Prezidenti Administrasiyasına təqdim edilmişdir.

**18.** 15-17 mart tarixlərində şöbənin aparıcı məsləhətçiləri S.Məmmədova və S.Abbasova UNİCEF, Təhsil və Fövqəladə Hallar Nazirlikləri ilə birgə "Təhsildə fəlakət riskinin aradan qaldırılması" (DİPECHO) layihəsi çərçivəsində keçirilən təlimlərdə iştirak etmək üçün Türkiyə Respublikasının İstanbul şəhərinə ezam olunmuşlar.

**19.** 11-22 aprel tarixlərində Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (TSİİL) (2009-2014-cü illər) "Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi" alt-komponenti üzrə İcra Planında nəzərdə tutulan Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsilin idarəedilməsi üzrə menecer hazırlığı istiqamətində şöbəyə Litva Respublikasından cəlb olunmuş beynəlxalq məsləhətçi Rimantas Jelvis Azərbaycana ilk səfərini etmişdir.

Bu məqsədlə beynəlxalq məsləhətçi, şöbənin müdiri F.Qədirov, şöbənin əməkdaşı V.Əbdülrəhimov, Ali və orta ixtisas təhsili şöbəsinin müdiri İ.Mustafayev, həmçinin Dərslik və nəşriyyat şöbəsinin müdiri F.Şahbazlı və Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (TSİİL) rəhbəri E.Rüstəmovla birgə görüş keçirilmişdir.

Səfər müddətində beynəlxalq məsləhətçi Rimantas Jelvis və şöbənin əməkdaşı V.Əbdülrəhimov Azərbaycan Dövlət Pedaoqji Universitetində təhsilin idarəedilməsi üzrə menecer hazırlığına dair həmin universitetin rəhbərliyi və idarəetmə üzrə tədris aparan professor-müəllim heyəti ilə keçirilən görüş, sorğu və müzakirələrdə, həmçinin menecment ixtisası üzrə dərslərdə və həmin dərslərdə tələbələrlə aparılan sorğularda iştirak etmişlər.

Eyni zamanda, təhsilin idarəedilməsi üzrə menecer hazırlığı işində köməklik göstərmək və bu istiqamətdə işlərin təkmilləşdirilməsi məqsədilə beynəlxalq məsləhətçi Xəzər Universitetinin rektoru Con Rayder (John Ryder) və həmin universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Hamlet İsaxanlı, Azərbaycan Müəllimlər İnstitutunda rektor Aqiyə Naxçıvanlı, Əlavə təhsil üzrə prorektor Rahim Əzizov, "Təhsilin idarə edilməsi" kafedrasının dosenti Rəşid Cabbarov, həmçinin həmin institutda ixtisasartırma kursu keçən məktəb direktorları və direktor müavinləri ilə görüşlər keçirmiş və müzakirələr aparılmışdır.

Səfərin sonunda beynəlxalq məsləhətçi Azərbaycan Dövlət Pedaqoji Universitetində apardığı ilkin tədqiqatlarına dair Hesabat hazırlamış, həmin hesabatı, həm ingilis, həm də azərbaycan dillərində Nazirliyin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə və Layihənin Əlaqələndirmə Qrupuna (LƏQ) təqdim etmişdir.

**20.** Azərbaycan Respublikasında ahıl vətəndaşların hüquqlarının hazırkı vəziyyəti və yaşlıların təhsili sahəsində Təhsil Nazirliyinin gördüyü işlərlə bağlı məlumatlar hazırlanmış və aprel ayında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Ombudsman Aparatına təqdim edilmişdir.

**21.** 2010-2011-ci dərs ilində YUNİSEF, Təhsil və Fövqəladə Hallar Nazirlikləri ilə birgə "Təhsildə fəlakət riskinin aradan qaldırılması" (DİPECHO) layihəsi davam etdirilmişdir. Layihə çərçivəsinə işçi qrupunun müntəzəm görüşləri keçirilmiş və müzakirələr aparılmışdır. Tədbirlər planına yuğun olaraq Təhsil və Fövqəladə Hallar Nazirlikləri tərəfindən seçilmiş 6 region üzrə (Bakı şəhəri, Şamaxı, Şəki, Zaqatala, Sabirabad və Saatlı rayonları) 10 pilot məktəbə görüşlər və müxtəlif tədbirlər keçirilmişdir.

01-25 fevral tarixlərində Bakı şəhəri, Şəki, Şamaxı, Zaqatala, Saatlı və Sabirabad rayonları üzrə seçilmiş pilot ilkin vəziyyətin öyrənilməsi ilə bağlı sorğular keçirilmişdir.

Həmin layihə çərçivəsində 26-27 fevral tarixlərində Qəbələ rayonunda Şamaxı, Şəki və Zaqatala rayonları üzrə seçilmiş pilot məktəblərinin müəllimləri, 5-6 mart 2011-ci il tarixdə Salyan rayonunda Saatlı, Sabirabad rayonları üzrə seçilmiş pilot məktəblərinin müəllimləri üçün təlimlər və seminar keçirilmişdir.

16 mart tarixində Bakı şəhəri üzrə 116 və 182 nömrəli məktəbin müəllimləri üçün təlim məşğələləri keçirilmişdir.

19 aprel tarixində YUNİSEF-in regional nümayəndələri, Təhsil və Föqəladə Hallar Nazirliklərinin əməkdaşlarının iştirakı ilə seminarın keçirilməsi, həmçinin UNİSEF–in hazırladığı 128 səhifəlik "Təbii fəlakətlər riskinin azaldılması problemi üzrə müəllimlər üçün vəsait" korrektə olunaraq rəy və təkliflərlə UNİSEF-ə təqdim edilmişdir.

**22.** 07-08 may tarixlərində Təhsil Nazirliyi, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi (MTTYM) ilə birgə həyata keçirilən "Səmərəli məktəb" layihəsinin "***Səmərəli məktəb idarəetməsi və birgə rəhbərlik komponenti***"nə müvafiq olaraq Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin (MTTYM) ofisində "Səmərəli məktəbin səmərəli idarəetməsi" mövzusu üzrə 2 günlük təlimlərdə iştirak etmişdir.

Həmin təlimlərdə iştirak edərək, şöbənin aparıcı məsləhətçisi Vüqar Əbdülrəhimov "Məktəb idarəetməsi və Liderlik" mövzusu üzrə təqdimatla çıxış etmişdir. Təlimlər zamanı, həmçinin Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin (MTTYM) icraçı direktoru Elmina Kazımzadə "Liderlik yanaşmaları. Liderlik və menecment", həmin mərkəzin mütəxəssisi Raziyə İsayeva "Strateji planlaşdırma və idarəetmə. Uğurlu strateji planlaşdırmanın əsas elementləri. Daxili və xarici mühitin qiymətləndirilməsi" mövzuları üzrə ümumi təqdimatlar etmiş, qeyd olunan mövzulara dair müzakirələr aparılmış, qruplarda işlər təşkil edilmiş və təlim iştirakçılarına müvafiq tapşırıqlar verilmişdir.

**23.** 13-14 və 16 iyun tarixlərində Təhsil Nazirliyi, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi (MTTYM) ilə birgə həyata keçirilən "Səmərəli məktəb" layihəsi çərçivəsində layihə məktəblərində strateji planların hazırlanması məqsədilə şöbənin əməkdaşı V.Əbdülrəhimov 164 və 225 nömrəli orta məktəblərdə strateji planların hazırlanmasına dair müzakirələrdə və həmin planların hazırlanması prosesində iştirak etmişdir.

**24.** Təhsil Nazirliyinin 31 may 2011-ci il tarixli 11/424 nömrəli əmri ilə 04-08 iyul tarixlərində Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi (MTTYM) ilə birgə həyata keçirilən "Səmərəli məktəb" layihəsi çərçivəsində Makedoniya Respublikasının Ohrid şəhərində Təhsil Siyasəti üzrə Mərkəzlər Şəbəkəsi (Network of Education Policy Centers) tərəfindən "Məktəb idarəetməsi" mövzusunda yay məktəbi təşkil edilmişdir. Həmin yay məktəbində şöbənin əməkdaşları V.Əbdülrəhimov və N.Əliyev iştirak etmişlər.

Yay məktəbinin əsas məqsədi məktəbdə idarəetmə, liderlik təcrübəsini öyrənmək, rəhbər və pedaqoji kadrların idarəetmə sahəsində peşəkarlıq səviyyəsini yüksəltmək, eyni zamanda, idarəetmənin təkmilləşdirilməsi istiqamətində müvafiq bilikləri əldə etmək və müasir idarəetmə bacarıqlarına yiyələnməkdir. Şöbənin əməkdaşları yay məktəbindən qayıtdıqdan sonra əldə etdikləri təcrübənin nəticələrinə dair Hesabat hazırlamış və həmin hesabatı Nazirliyin Beynəlxalq əlaqələr şöbəsinə təqdim etmişlər.

**25.** Cari ilin iyun-avqust aylarında yeni fənn kurikulumlarının tətbiqi ilə bağlı 2011-2012-ci tədris ilində dərs deyəcək ibtidai sinif müəllimlərinin 10 günlük (60 saat) təlim kurslarına cəlb edilməsi ilə əlaqədar təşkilati işlər təşkil edilmiş, təlimlərlə bağlı hazırlıq işləri aparılmış, siyahılar dəqiqləşdirilmiş və təlimçilərin müsahibə vasitəsilə seçimi aparılmışdır. Həmçinin tenderdə qalib gəlmiş və təlim kurslarını həyata keçirmək hüququ qazanmış təşkilatlarla əlaqə yaradılmış, təlimlərin müntəzəm və səmərəli keçirilməsinə, davamiyyətin nəzarətdə saxlanılmasına, koordinatorlarla daim əlaqədə olmasına və bu istiqamətdə onlara müvafiq köməklik göstərilmişdir.

**26.** İyun və dekabr aylarında (iki dəfə, altı aydan bir) Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiyaya Təhsil Nazirliyinin mərkəzi aparatında və tabeliyində olan təhsili idarəetmə orqanlarında inzibati vəzifələrdə çalışan dövlət qulluqçularının fəaliyyəti və inkişafı ilə əlaqədar həyata keçirilmiş tədbirlər haqqında hesabatlar hazırlanıb təqdim edilmişdir.

**27.** 26 iyul-29 avqust tarixlərində müvafiq kompüter proqramı vasitəsilə 8658 müəllimin iştirakı ilə müəllimlərin işə qəbulu üzrə test imtahanları keçirilmişdir.

Məlumat üçün qeyd edək ki, müəllimlərin işə qəbulu üzrə test üsulu ilə keçirilən imtahanlarla əlaqədar Bakı Şəhəri üzrə Təhsil İdarəsindən, Təhsil Nazirliyinin birbaşa tabeliyində olan məktəblərdən daxil olan təqdimatlar əsasında vakant yerlər barədə məlumatlar və reqlamentləşdirilmiş qaydalar hazırlanmış, Təhsil Nazirliyinin rəsmi İnternet saytında açılmış "Müəllimlərin işə qəbulu" səhifəsində və "Azərbaycan müəllimi" qəzetində elanların verilməsi təmin edilmişdir.

Müsabiqədə iştirak etmək istəyənlər elektron ərizələrlə müraciət etmiş, şəxsi işlər (cəmi: 9342 nəfər) araşdırılmış, qəbul olunmuş meyarlar əsasında ilkin qiymәyləndirmə aparılmışdır.

Vakant yerlərə işə qəbul üzrə test imtahanlarında 8658 müəllim iştirak etmiş, müvafiq kompüter proqramı tərəfindən nəticələr qiymətləndirilmiş və vakant yerlərə yerləşdirmə aparılmışdır.

Nəticə olaraq, Nazirliyin rəsmi internet saytında açılmış "Müəllimlərin işə qəbulu" bölməsində hər bir namizəd üçün fərdi "şəxsi kabinet"lər açılmış, müvafiq məlumatlar və nəticələr birbaşa namizədlərin "şəxsi kabinet"lərinə göndərilmişdir.

**28.** Təhsil Nazirliyi və British Councilin birgə həyata keçirdiyi "Ümumtəhsil məktəblərində ingilis dilinin intensiv tədrisi layihəsi" 2011-ci ildə də davam etdirilmişdir.

Həmin layihəyə Nazirliyin 17.10.2011-ci il tarixli, 1674 nömrəli əmri ilə 13 yeni (18, 31, 46 ,49, 60, 80, 82, 138, 164, 189, 220, 267, 304) məktəb qoşulmuşdur. Bu ba1 3 və 5-7 siniflərdə davam etdirilmişdir. Həmin layihə çərçivəsində I sinifdə dərs deyəcək 35 ingilis dili müəllimi üçün 04-08 sentyabr tarixlərində, VIII sinifdə dərs deyəçək 30 nəfər ingilis dili dili müəllimi üçün 09-14 sentyabr tarixlərində beş günlük seminar keçirilmiş və həmin müəllimlərə sertifikatlar təqdim edilmişdir. Xarici dillərin intensiv və səmərəli öyrədilməsi üçün müasir təlim strategiyalarının tətbiqi, bu sahədə aparılan eksperimentlərin genişləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsinə uyğun olaraq oktyabr ayinda həmin müəllimlərə bir günlük " Xəzər " universitetində onlayn kursları üzrə seminar keçirilmişdir.

Həmin layihə çərçivəsində 08-09 dekabr tarixlərində VIII sinifdə dərs deyən 30 nəfər, 10-11 və 12-13 dekabr tarixlərində isə I sinifdə dərs deyən 50 ingilis dili müəlliminə təlim keçirilmiş və sertifikat təqdim edilmişdir.

**29.** 24 oktyabr-09 noyabr tarixlərində Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (TSİİL) (2009-2014-cü illər) "Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi" alt-komponenti üzrə İcra Planında nəzərdə tutulan Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsilin idarəedilməsi üzrə menecer hazırlığı istiqamətində şöbəyə Litva Respublikasından cəlb olunmuş beynəlxalq məsləhətçi Rimantas Jelvis Azərbaycana növbəti səfərini etmişdir.

Belə ki, beynəlxalq məsləhətçi, şöbənin müdiri F.Qədirov, şöbənin əməkdaşı V.Əbdülrəhimov, Ali və orta ixtisas təhsili şöbəsinin müdiri İ.Mustafayev, həmin şöbənin baş məsləhətçisi Kamil Məcidov, həmçinin Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (TSİİL) rəhbəri E.Rüstəmov ilə birgə görüş keçirilmişdir.

Səfər zamanı beynəlxalq məsləhətçi Pedaqoji Universitetdə təhsilin idarəedilməsi sahəsində menecer hazırlığı üzrə tədris aparan professor-müəllim heyəti üçün seminar və təqdimatlar keçirmişdir. Seminarlar zamanı beynəlxalq məsləhətçinin birinci səfərinə dair "İlkin hesabatın qısa xülasəsi", "Təhsilin idarəedilməsi proqramı və Boloniya Prosesi", "Təhsilin İdarəolunması Kompetensiyaları: xarici ölkələrin təcrübəsi və praktiki nümunələr", "Dünya Universitetlərində Təhsilin İdarəolunması üzrə Proqram Nümunələri" mövzuları üzrə təqdimatlar keçirilmişdir.

Səfərin sonunda beynəlxalq məsləhətçi Rimantas Jelvis Pedaqoji Universitetdə apardığı növbəti tədqiqatlarına dair Hesabat hazırlamışdır. Həmin Hesabatda tədqiqatlar zamanı əldə edilən nəticələr, seminar və təqdimatlar, Pedaqoji Universitetin rəhbərliyi, professor-müəllim heyəti ilə birgə keçirdiyi görüş və müzakirələr, təhsilin idarəedilməsi sahəsində menecerlərin hazırlığı üzrə bakalavr və magistratura pillələrində kurikulumların təkmilləşdirilməsi, həmin sahə üzrə tədris proqramları nümunələri və ədəbiyyatların siyahısı, qeyd olunan məsələlərə dair təklif və tövsiyələr öz əksini tapmışdır. Hesabat şöbəyə və Layihənin Əlaqələndirmə Qrupuna (LƏQ) təqdim edilmiş, tərcümə olunaraq, Təhsil Nazirinə təqdim edilmiş və məlumat verilmiş, həmçinin Ali və orta ixtisas təhsili şöbəsinə və Azərbaycan Dövlət Pedaqoji Universitetinə göndərilərək fəaliyyətlərində nəzərə alınması tapşırılmışdır.

**30.** Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit okean regionu üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP) tərəfindən hazırlanmış "Yaşlanma üzrə regional sorğu" ilə bağlı məlumatlar hazırlanmış, həmin məlumatlar cari ilin noyabr ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir.

**31.** Azərbaycan və Avropa İttifaqı arasında Qonşuluq siyasəti çərçivəsində qəbul edilmiş Fəaliyyət Planının (FR) müddəalarının icrası üzrə Təhsil Nazirliyi tərəfindən 2011-ci ildə görülmüş işlər barədə məlumat hazırlanmış və noyabr ayında Beynəlxalq əlaqələr şöbəsinə təqdim edilmişdir.

**32.** Azərbaycan Respublikası Prezidentinin "İcra intizamının möhkəmləndirilməsi və icraya nəzarətin təşkilinin təkmilləşdirilməsi tədbirləri haqqında" 26 oktyabr 2006-cı il tarixli, 472 nömrəli Fərmanının icrası ilə əlaqədar 2009-cu ildə ölkə başçısı tərəfindən imzalanmış fərman və sərəncamlar üzrə görülmüş işlər barədə 92 səhifəlik məlumat hazırlanmışdır. Məlumatda Dövlət Proqramlarında, Milli Fəaliyyət və Tədbirlər Planlarında icrası 2011-ci il üçün nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, görülən işlərin keyfiyəti və kəmiyyəti barədə məlumatlar öz əksini tapmışdır.

**33.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli, 3043 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2008-2015–ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq 2011-2015-ci illər üzrə Tədbirlər Planının hazırlanması üçün Təhsil Nazirliyi tədbirlərin icrası istiqamətində rəy və təkliflər İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir.

**34.** Azərbaycan Respublikası Prezidentinin 15.05.07 tarixli, 2167 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə

Dövlət Proqramı (2007-2010-cu illər)"nın icrası ilə əlaqədar Təhsil Nazirliyinin 4 il ərzində gördüyü işlər barədə məlumat hazırlanmış və həmin məlumatlar Əmək və Əhalinin Sosial müdafiəsi Nazirliyinə təqdim edilmişdir.

**35.** Azərbaycan Respublikasında Minilliyin İnkişaf Məqsədləri (MİM) sahəsində görülən işlər barədə İcra Hesabatına baxılmış və Təhsil Nazirliyi tərəfindən rəy və təkliflər İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir.

**36.** Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq Gənclər və İdman Nazirliyinin aidiyyəti dövlət qurumları ilə birlikdə hazırladığı "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı layihə sənədinə şöbədə baxılmış, təhlil edilmiş, əlavə rəy və təkliflər hazırlanaraq aparata təqdim edilmişdir.

**37.** Cari ildə UNİCEF-in Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi "Məktəb uşağın dostudur" layihəsi çərçivəsində "Ümumtəhsil məktəblərinin səmərəli idarəolunması" mövzusunda təlim kursları Bakı şəhəri üzrə müəyyənləşdirilmiş məktəblərdə davam etdirilmişdir.

**38.** Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının (2009-2013-cü illər) təsdiq edilməsi" haqqında 06.02.2009-cu il tarixli, 133 nömrəli Sərəncamının icrasına uyğun olaraq Beynəlxalq Miqrasiya Təşkilatı, Daxili İşlər və Təhsil Nzirliklərinin birgə həyata keçirdiyi "Azərbaycanda insan alverinin qarşısının alınması üzrə orta məktəb təhsili" layihəsi 2011-ci dərs ilində də davam etdirilmişdir.

İnsan alverinin mahiyyəti və təhlükəsi, qanunsuz miqrasiyanın doğurduğu təhlükələr barədə məlumatlandırma məqsədilə ali, orta ixtisas və texniki peşə təhsili müəssisələrində həmin layihə çərçivəsində müəllimlər, şagirdlər, valideynlərin iştirakı ilə tədbirlər, o cümlədən seminarlar, "dəyirmi masalar", debatlar təşkil edilmişdir. İctimai fənlərin məzmununda uyğun mövzuların tədrisi prosesində qanunsuz miqrasiyanın azaldılması, insanlarla ticarətin qarşısının azaldılması və aradan qaldırılması üçün dövlət qurumları tərəfindən görülən işlər barədə şagird və tələbələrə biliklər verilmişdir. IX-XI siniflərində tətbiq ediləcək müəllimlər üçün vəsaitin modulu hazırlanmış, 2010-2011-ci dərs ilində seçilmiş 15 pilot məktəbində müəllim şagird və valideynlər üçün marifləndirmə tədbirləri keçirilmişdir.

**39.** 2010-2011-ci dərs ilində həm Bakı şəhəri, həm də respublikanın rayonları üzrə 35 ümumtəhsil məktəblərinin I və V siniflərində "Rus dilinin intensiv tədrisi" layihəsi davam etdirilmişdir. Layihə çərçivəsində ən yaxşı müəllim, ən yaxşı şagird müsabiqələri keçirilmişdir. Rusiya ilə Əməkdaşlıq Təşəbbüsləri Federal Agentliyinin ölkəmizdə birgə həyata keçirdikləri "Rus dili (2006-2010-cu illər) proqramı" çərçivəsində Gəncə, Xaçmaz, Lənkəran, Masallı, Cəlilabad, Yardımlı, rayonlarının təhsil işçilərinin, fəal tələbə və şagirdlərin iştirakı ilə müzakirələr keçirilmişdir. Layihə çərçivəsində may-iyun aylarında rus dili fənni üzrə şagirdlərin olimpiadası keçirilmiş və qaliblərə mükafatlar təqdim edilmişdir. İl ərzində Ən yaxşı rus dili müəllimi müsabiqəsi keçirilmiş və qalib müəllimlər mükafatlandırılmışdır. Layihə çərçivəsində konfrans, təlim, dəyirmi masa, yubiley şənlikləri, müxtəlif əyləncəli tədbirlər və keçirilmişdir. Layihədə uğurlu və fəal iştirakına görə şöbənin əməkdaşı S.Məmmədova və N.Əliyevə Rusiya Səfirliyi tərəfindən diplom təqdim edilmişdir.

**40.** Cari ildə "ANS" Müstəqil Yayım və Media Şirkəti Təhsil Nazirliyi ilə birgə hazırlanan 11-ci sinif şagirdlərinin iştirakı ilə "Ağıl Dəryası" erudisiya, əyləncə və intellektual yarış xarakterli layihə davam etdirilmişdir. Həmin yarışın şəffaf həyata keçirilməsi üçün layihə çərçivəsində 7 fənn müəllimlərindən ibarət işçi qrupu yaradılmışdır. Fənlər üzrə testlər işçi qrupu tərəfindən hazırlanahhraq layihə rəhbərinə təqdim edilmişdir.

Layihə iştirakçıları arasından 3 nəfər şagird 1, 2 və 3-cü yerləri tutaraq diplomlara layiq görülmüş və 2 nəfər qalib şagirdlərin təhsil xərcləri Universitet tərəfindən ödənilməklə Kiprdə ali təhsil almaq üçün həmin ölkəyə göndərilmişlər. Layihənin uğurla başa çatdığına və layihədə fəal iştirakına görə şöbənin aparıcı məsləhətçisi S.Məmmədovaya "ANS" Müstəqil Yayım və Media Şirkətinin diplomu təqdim edilmişdir.

**41.** İl ərzində şöbənin əməkdaşları əməkdaşlıq etdiyimiz təşkilatların - “British Council”, “Uşaqların Xilası” “UNİCEF”, “Beynəlxalq Miqrasiya Təşkilatı” və səfirlikərin ( Rusiya Federal Respublikasi, Britaniya, Norveç və ABŞ ) təşkil etdiklkləri konfrans, təlim, seminar, dəyirmi masa və digər tədbirlərdə, görüşlərdə iştirak edərək Təhsil Nazirliyini təmsil etmişlər.

**42.** İl ərzində təhsil işçilərinə fəxri adların verilməsi, dövlət təltiflərinə namizədlər haqqında məlumatların hazırlanması və təltif olunanların şəxsi işlərinin toplanması, Təhsil Nazirliyinin təltiflərinin verilməsi üzrə sənədləşdirmə işlərinin aparılması həyata keçirilmişdir.

**43.** Təhsil Nazirliyində planlaşdırılmış tədqiqatların istiqamətlərinin dəqiqləşdirilməsi məqsədilə araşdırmalar aparılaraq, müəyyən olunmuş dövlət sənədlərindən çıxarışlar edilmiş və tövsiyələr hazırlanmışdır. Eyni zamanda, Təhsil Nazirliyinin, digər dövlət müəssisələrinin, beynəlxalq və milli QHT-lərin, maliyyə qurumların fəaliyyət planlarında əks olunan təhsil sahəsinə dair məsələlər müəyyənləşdirilmiş və əlaqələndirilmişdir.

**44.** Şöbələrdən daxil olan statistik və yazılı məlumatlar ümumiləşdirilmiş, yekun məlumatlar hazırlanmış, il ərzində şöbəyə daxil olan məktublara, ərizə və şikayətlərə, nəzarət xarakterli sənədlərə baxılmış və həmin sənədlər icra olunmuşdur.

**45.** Eyni zamanda, şöbənin əməkdaşları mütəmadi olaraq vətəndaşların qəbulu prosesində iştirak edərək, onların müraciətlərinə və şikayətlərinə aidiyyatı üzrə cavab verilmişdir.

**46.** Həmçinin, Nazirliyin “Qaynar Xətt” xidmətinə daxil olan məlumatlar araşdırılmış, təhlil edilmiş və nəticələr ilə bağlı Arayış hazırlanmışdır.

**47.** İl ərzində şöbənin İş Planında əsk olunan tədbirlər nəzərdən keçirilmiş və əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərin icrası barədə şöbə müdirinə məlumat verilmişdir.

**48.** Nazirlikdə strateji planlaşdırmanın icrası prosesini nəzərə alaraq, şöbələrin il ərzində gördükləri işlərə dair hesabatları nəzərdən keçirilmiş və müvafiq struktur bölmələrlə birgə Nazirliyin 2011-ci ildə gördüyü işlərə dair ümumi hesabatı hazırlanmışdır.

**49.** Təhsil Nazirliyinin illik fəaliyyət planı nəzərdən keçirilərək, görülən işlər qiymətləndirilmiş və düzəlişlərə dair tövsiyələr verilmiş, təhsil sektorunda aparılan islahatların əhatə dairəsinin bütövlüyü və səmərəliliyi haqqında məlumatlar toplanmış və təhlillər aparılmışdır.

**II. İl ərzində təhsil nazirliyinin mərkəzi aparatinda və təhsil sistemində kadrlarin idarə olunmasi sahəsi üzrə şöbə tərəfindən görülən işlərin icra vəziyyəti.** Azərbaycan Respublikasında təhsil sisteminin qarşısında duran vacib istiqamətlərdən biri də ümumtəhsil məktəblərində pedaqoji kadr təminatı probleminin aradan qaldırılması ilə əlaqədardır.

Ümumiyyətlə, təhsil sektorunun ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr çatışmazlığı, həmin ixtisaslı mütəxəssislərin konkret iş yerləri ilə təminatı problemlərinin həlli son nəticədə Azərbaycan təhsilinin keyfiyyət göstəricilərinə öz müsbət təsirini göstərməklə gələcək inkişafa təkan verərək mühüm fəaliyyət istiqaməti kimi qiymətləndirilir.

Azərbaycan Respublikasının “Təhsil haqqında ” və “Dövlət qulluğu haqqında”qanunlarına, Təhsil Nazirliyinin normativ hüquqi sənədlərinə və Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin fəaliyyət planına uyğun olaraq tərəfimdən 2011-ci ildə aşağıdakı işlər həyata keçirilmişdir:

**1.** “Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklilər edilməsi haqqında” Azərbaycan Respublikasının 17 may 2011-ci il tarixli 127-İVDQ nömrəli Qanununun icrası ilə bağlı Təhsil Nazirliyinin 15.07.2011-ci il tarixli 1404 nömrəli əmrinə əsasən sistem üzrə nomenklaturaya daxil olan və yaşı 65-dən yuxarı təhsil işçilərinin siyahıları toplanmış, onun təhlili aparılaraq bağlanmış əmək müqavilələrinin ləğvi barədə əmr layihələri hazırlanaraq imzaya təqdim olunmuşdur. Beləliklə, respublika üzrə 18 orta ixtisas təhsil müəssisəsinin direktor və direktor müavini, 24 ilk peşə ixtisası təhsil müəsisəsinin direktoru və tədris, istehsalat işləri üzrə direktor müavini, 305 məktəb direktoru, 33 məktəbdənkənar təhsil müəssisə direktoru və 81 məktəbəqədər təhsil müəssisə müdiri ilə əmək müqavilələri ləğv edilmişdir.

Həmin əmrdə təhsil sahəsində çalışan və yaşı 65-dən yuxarı işçilərlə bir il müddətinə əmək müqaviləsinin uzadılmasına imkan verən meyarlar (son bir ildə haqqında intizam tənbehi

tədbiri tətbiq edilməmiş, elmi dərəcəsi və elmi adı olan, dövlət təltifi ilə təltif olunan, attestasiyadan 2 dəfə müvəffəqiyyətlə çıxan, “Ən yaxşı müəllim müsabiqəsi”nin qalibi olması, təhsil müəssisəsində ixtisaslı kadr və ya işçini başqası ilə əvəz etmək mümkün olmadiqda, səhhəti vəzifəsini icra etməyə imkan verdiyi halda, cəmiyyətdə və işçilər arasında nüfuza malik olduqda) müəyyənləşdirilmiş və həmin meyarlara cavab verən rəhbər işçilərlə - 10 məktəb direktoru, 3 məktəbdənkənar müəssisə rəhbəri və 9 məktəbəqədər tərbiyə müəssisə rəhbəri ilə bir il müddətinə əmək müqaviləsi bağlanmışdır. Eyni zamanda yerlərdə təhsil müəssisələrində həmin kateqoriyadan olan işçilərlə bağlanmış əmək müqaviləsinin ləğvi il bağlı tədbirlərin qanunvericiliyə uyğun həyata keçirilməsi və nəticələr barədə məlumatların nazirliyə göndərilməsi, onların dərs yükünün və ya qruplarının digər işçilər arasında mövcud normalara uyğun bölüşdürülməsi barədə tapşırıqlar verilmişdir.

**2.** “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklilər edilməsi haqqında” Azərbaycan Respublikasının 17 may 2011-ci il tarixli 126-İVDQ nömrəli Qanununun icrası ilə bağlı imzalanmış Təhsil Nazirliyinin 15.07.2011-ci il tarixli 1405 nömrəli əmrilə sistem üzrə nomenklaturaya daxil olan və yaşı 65-dən yuxarı təhsili yerli idarəetmə orqanlarında çalışan dövlət qulluqçuları barədə məlimatlar toplanaraq bazadakı məlumatların dəqiqləşdirilməsi və təhlili aparılaraq onlarla bağlanmış əmək müqavilələrinin ləğvi barədə əmr layihələri hazırlanaraq imzaya təqdim olunmuşdur. Beləliklə, respublika üzrə 53 dövlət qulluqçusu ilə bağlanmış əmək müqaviləsi ləğv edilmiş, 10 nəfərlə isə yenidən bir illik müqavilə bağlanmışdır.

**3.** Əmək qanunvericiliyində aparılmış dəyişikliklə bağlı 65 və daha yuxarı yaş həddinə çatmış müəllimlərlə bağlanmış əmək müqaviləsinin ləğvi, eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi” haqqında Qərarına əsasən pedaqoji işçilərin həftəlik dərs yükü normasının 24 saat müəyyənləşdirilməsi nəticəsində məktəblərdə yaranmış vakant yerlərə Təhsil Nazirliyinin apardığı müsabiqədə iştirak edərək adı ehtiyat kadrlar siyahısına düşmüş kadrın işə qəbul olunması və mövcud problemin həlli məqsədilə təhsili yerli idarəetmə orqanlarının əsaslandırılmış təqdimatları, vakant yerlər və dərs saatlarının həcmi, namizədlərin imtahanda toplaqıqları balları, təhsil sənədləri əsas götürülməklə kadrların ixtisasları üzrı işə qəbuluna icazə verilmişdır. Beləliklə, təqdim olunmuş təhsil sənədlərinin saxta olub-olmamasını araşdirmaq məqsədilə onların ekspertizası aparılmış və kadra kəskin ehtiyac olan ümumi təhsil məktəblərində 552 nəfər ixtisası üzrə işlə təmin edilmişdir.

**4.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın təşkil etdiyi müsabiqə və müsahibələrlə bağlı Təhsil Nazirliyi sistemində 6-9-cu təsnifat vakant inzibati vəzifənin tutulması üçün məlumatlar hazırlanaraq həmin Komissiyaya göndərilmişdir. Komissiya tərəfindən 21 oktyabr 2010-cu il tarixdə elan olunmuş müsabiqəyə 56 vəzifə üzrə 67 yer çıxarılmışdır.Həmin yerlərə 147 nəfər ərizə vermiş, 133 nəfər test imtahanında iştirak edərək 29 nəfər 6-cı təsnifat inzibati vəzifələrə 51 nəfər isə 8-9-cu təsnifat inzibati vəzifələrə müsabiqənin ilkin mərhələsindən keçmişlər. 29 nəfərlə keçirilən müsahibədən müvəffəqiyyətlə çıxaraq 2 nəfər Təhsil Nazirliyinə (Dərslik və nəşriyyat, İqtisadiyyat şöbələri), 2 nəfər isə 9-cu təsnifat inzibati vəzifələrə təyin edilmişlər. 51 nəfərdən əlavə digər nazirliklərə ərizə vermiş, lakin 9-cu təsnifat vəzifələrə layiq bilinmiş daha 27 nəfər,ümumilikdə 78 nəfərlə müsahibə aparılmış və onlardan 10 nəfər 9-cu təsnifat inzibati vəzifələrə (Baki ŞTİ Təhsilin idarəolunmasının məlumat sistemləri sektorunun müdiri, STPKİ sektorunun baş məsləhətçisi, Mühasibatlıq sektoru məsləhətçi, Abşeron RTŞ aparıcı məsləhətçi, İsmayıllı RTŞ aparıcı məsləhətçi, Sabirabad RTŞ aparıcı məsləhətçi, Cəlilabad RTŞ aparıcı məsləhətçi, Sumqayıt ŞTŞ aparıcı məsləhətçi, Goranboy RTŞ məsləhətçi, Laçın RTŞ məsləhətçi) müsahibədən keçə bilmişlər. 29 nəfərlə 25.01-01.02.2011-ci il tarixlərdə aparılmış müsahibədən 1 nəfər İqtisadiyyat şöbəsində aparıcı məsləhətçi (İsmayıl Həsənov), 1 nəfər Dərslik və nəşriyyat şöbəsində aparıcı məsləhətçi (Vüsalə Nəsənova), 2 nəfər isə 9-cu təsnifat vəzifələrə (Gülbəniz Abasova və Elnur Quliyev) müsahibədən keçmişlər İ.Həsənov Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında baş mühasib kimi işlə təmin olunduğundan və E.Quliyev 9-cu təsnifat inzibati vəzifəni tutmaqdan

imtina etdiyinə görə onların adlarının  ehtiyat kadrlar siyahısına salınması üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya göndərilmişdir. Müsahibə nəticələrindən apellyasiya şikayəti vermiş (Nazirliyin Akkreditasiya şöbəsində böyük məsləhətçi  vəzifəsinə iddia edən Fazil Rüstəmov, Texniki peşə təhsili şöbəsində aparıcı məsləhətçi müsahibədən keçməmiş Emin Şirinov və  İqtisadiyyat şöbəsində məsləhətçi Fariz Salahov) namizədlərdən E.Şirinov və F.Salahovun iddiaları Apellyasiya komissiyası tərəfindən təmin olunmuşdur. Lakin F.Salahov sonradan həmin vəəzifəyə təyin edilməsi üçün sənədləşmə işləri ilə bağlı Nazirliyə gəlməkdən imtina etdiyinə görə sənədləri Komissiyaya qaytarılmışdır. Emin Şirinovun iddiası təmin edilərək o, Texhiki peşə təhsili şöbəsinə aparıcı məsləhətçi təyin edilmişdir.

18 yanvar 2011-ci il tarixdə elan olunmüş müsahibədən müvəffəqiyyətlə keçən Ə.Qənbərov Biləsuvar RTŞ-nin müdir müavini vəzifəsinə təyin olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya  26 aprel 2011-ci il tarixdə elan etdiyi müsahibəyə 8- 9-cu təsnifat üzrə  6 vakant vəzifə çıxarılmış  ( Xocavənd RTŞ məsləhətçi, Tərtər RTŞ-də aparıcı məsləhətçi, Şəki ŞTŞ-də müdir müavini, Bakı ŞTİ,  İKT sektorunda  aparıcı məsləhətçi,  Göranboy RTŞ-də aparıcı məsləhətçi, Biləsuvar RTŞ-də aparıcı məsləhətçi), 7 namizəddən 3 nəfər (E.Abdullayev, Q,Bağırov, İ.Jəfərov) müsahibədən müvəffəqiyyətlə çıxmış və iddia etdikləri vəzifələrə təyin olunmuşlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 14.06..2011-ci il tarixdə elan etdiyi  müsabiqəyə Təhsil Nazirliyi sistemi üzrə 64 vakant yerə 440 ərizə verilmiş, test imtahanında 328 nəfər iştirak etmişdir. Onlardan 221 nəfər 6-cı təsnifat üzrə 14 vakant, 193 nəfər isə 8-9-cu təsnifat inzibati vəzifələr üzrə isə 50 vakant yerə iddia etmişlər. 6-cı təsnifat üzrə 30 nəfər test imtahanından müvəffəqiyyətlə çıxmış, keçirilən müsahibədən isə 12 nəfərdən 5 nəfəri Təhsil Nazirliyinin Monitirinq və qiymətləndirmə şöbəsində məsləhətçi, Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsi Əlavə təhsil sektorunda  məsləhətçi, Akkreditasiya şöbəsində məsləhətçi, Beynəlxalq Əlaqələr şöbəsində məsləhətçi, İqtisadiyyat şöbəsində məsləhətçi vəzifələrinə, 7  nəfər isə 9-cu təsnifat vəzifələrə uyğun sayılmışlar. İqtisadiyyat şöbəsinə müsabiqədən keçmiş Günay Əzimova magistraturada əyani təhsil aldığına görə onun sənədləri adının ehtiyat kadrlar siyahısına salınması üçün Dövlət Qulluğu Məsələləri üzrə  Komissiyaya  göndərilmişdir. 8-9cu təsnifat inzibati vəzifələrə 127 nəfər test imtahanından çıxsa da müsahibə mərhələsində yalnız 21 nəfər özünü doğrulda bilmişdir. Onlardan 2 nəfər Lənkəran ŞTŞ, 1nəfər Kürdəmir RTŞ,  2 nəfər Laçın RTŞ, 1 nəfər Tovuz RTŞ. 1 nəfər Goranboy RTŞ, 2nəfər Cəbrayıl RTŞ,  1 nəfər Masallı RTŞ, 1 nəfər Oğuz RTŞ, 3 nəfər Bakı ŞTİ- də iddia etdikləri vəzifələrə təyin olunmuş, yerdə qalan 6 nəfərin adı ehtiyat kadrlar siyahısına salınmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 06.07.2011-ci il tarixdə elan etdiyi  müsahibəyə
çıxarılmış 5 yerdən dördünə sənəd verilmiş, lakin onlardan yalnız 3 nəfəri iddia etdikləri vəzifələrə (Şəki ŞTŞ müdir müavini, Bakı ŞTİ İnformasiya və kommunikasiya texnologiyaları sektorunda aparıcı məsləhətçi, Biləsuvar RTŞ aparıcı məsləhətçi) müsahibədən keçmişlər. Adı ehtiyat kadrlar siyahısına salınmış Alxas Qəribov Zaqatala RTŞ-nin baş mühasibi vəzifəsinə təyin edilmişdir.

**5.** “Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Türkiyə Respublikasının Dövlət Kadrlar İdarəsı arasında 2010- 2011-ci illər üzrə Fəaliyyət proqramı”na uyğun olaraq  dövlət idarəçiliyinin təkmilləşdirilməsi, dövlət qulluğu sahəsində dəstək və təcrübə mübadiləsinin aparılması məqsədilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın xətti ilə 13-19 fevral 2011-ci il tarixlərdə  11 orqanının (Təhsil, Səhiyyə, Sənaye və energetika, Gömrük, Ekologiya və təbii sərvətlər, İqtisadi inkişaf, Nəqliyyat  nazirlikləri, Suraxanı rayon və Mingəçevir şəhər icra hakimiyyətləri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Dövlət Qulluğu Məsələləri üzrə  Komissiya) 15 nəfərlik nümayəndə heyətinin tərkibində Türkiyə Respublikasının Ankara şəhərinə səfərdə iştirak edilmişdir.

Türkiyə Respublikasının Dövlət Kadrlar İdarəsinin rəhbəri Mehmet Tekinaslanla görüşərək dövlət qurumunun fəaliyyəti, strukturu, dövlət qulluğu sistemi, aidiyyəti nazirliklərin fəaliyyəti tanışlıq məqsədilə təşkil olunmuş prezentasiyalarda, Baş nazirin müavini, dövlət orqanlarının rəhbərləri ilə keçirilən görüşlərdə iştirak edilmişdir.

Türkiyə Respublikasının Təhsil Nazirliyində olarkən Xaricdə təhsil şöbəsində (Mehmet Altınsoy), həmin şöbənin Azərbaycanlılarla iş bölməsində (Cəlaliyə Şahinar), Qardaş məktəblər layihəsinin rəhbəri ilə (Daşqın Çalışqan), Kadrlar şöbəsində (rəisi Həcar Özdoğan və əməkdaş Bəkir Ərdoğan) ğörüş keçirilmiş, fikir mübadiləsi aparılmışdır. Görüş zamanı kadrların idarəolunması ilə bağlı görülən işlər, rəhbər və pedaqoji işçilərin işə qəbulu sahəsində aparılan işlər, problem və yeniliklər, Azərbaycanlı tələbələrin Türkiyədə və onların Azərbaycanda təhsil almaları, əməkdaşlığın genişləndirilməsi, "Qardaşlaşmış məktəblər layihəsi"nə uyğun həmin məktəblərin sayının artırılması, qarşılıqlı səfərlərin təşkili, dərslik və dərs vəsaiti, onların hazırlanma mexanizmi, təhsil müəssisələrinin kompyüterləşdirilməsi, tədris prosesində elektron dərsliklərdən istifadə, təhsilalanların dərsə davamiyyəti, dərsdə iştirakında aktivliyi və müvəffəqiyyətləri barədə məlumat bazasinin yaradılması və s. barədə qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

**6.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının bırgə layihəsi çərçivəsində "Dövlət qulluğunda etik davranış qaydaları" və "İş bölgüsünün aparılması qaydası" mövzularında keçirilən təlimdə, dövlət orqanlarının kadr qurumlarının rəhbərlərinin, QHT-nin ali təhsil müəssisələrinin və beynəlxalq təşkilat nümayəndələrinin iştirakı ilə keçirilən Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci il dönümünə həsr olunmuş "Dövlət qulluğunun inkişaf yolu və perspektiv vəzifələri" mövzusunda dəyirmi masanın işində iştirak edilmiş, təkliflərlə çıxış edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarının məsul əməkdaşları üçün təşkil olunmuş insan resurslarının idarə edilməsi üzrə təlimdə ( Kleraus Rimas) iştirak edilmişdir. Təlimdə insan resurslarının idarəedilməsinin elmi əsasları, onların xüsusiyyətləri və sahədəki müasir tendensiyalar barədə məlumat verilmiş, kadrların idarəolunmasında planlaşdırma, onların seçilməsi və fəaliyyətlərinin qiymətləndirilməsi, rəhbərin nüfuzunun və ona inamın artırılması, hədəflərin müəyyənləşdirilməsi, məqsəd və tapşırıqların formalaşdırılması, iş vaxtının idarəolunması ilə bağlı fikir mübadiləsi aparılmışdır.

23 iyun 2011-ci il tarixdə dövlət qulluqçularının peşə bayramının qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birlikdə keçirdiyi "Dövlət qulluğunun aktualproblemləri"nə dair elmi-praktik konfransın işində iştirak edilmişdir.Kon-fransda dövlət qulluğu sahəsində əldə olunmuş nauliyyətlər, problemlər və ğörülən işlər barədə məlumat verilmişdir.

**7.** 7.Azərbaycan Respublikası Prezidentinin "Dövlət büdcəsindən maliyyələşdirilən təhsil və səhiyyə müəssisələrində işin dövlət qulluğunun xüsusi növünə aid edilməsinə dair Konsepsiya layihəsinin hazirlanması barədə" 20 aprel 2011-ci il tarixli 1439 nömrəli Sərəncamının icrası ilə bağlı və Nazirlər Kabinetinin 25 aprel 2011-ci il tarixli 17/PA-310-18/11 nömrəli tapşırığına əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinə və Ədliyyə Nazirliyinə təkliflər hazırlanaraq göndərilmişdir.Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində işin dövlət qulluğunun xüsusi növünə daxil edilməsi üçün təhsil müəssisələrində də müəllimlərin işə qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi, xidməti fəaliyyətin qiymətləndirilməsi, pensiya təminatı, icbari tibbi sığorta və s təminatların nəzərdə tutulması, əmək münasibətlərini tənzimləyən qanunvericilik aktı müəyyənləşdirilməsi, əmək haqqının ödənilməsi sisteminə yenidən baxılması,müəllimlərə də dövlət qulluqçuları üçün nəzərdə tutulmuş aşağıdakı təminatların tətbiq olunası vacib bilinmişdir:

- ədliyyə, gömrük, prokurorluq, müdafiə və s. nazirliklərdə olduğu kimi, müəllimlərin işə qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi,

xidməti fəaliyyətinin qiymətləndirilməsi, dövlət qulluğunun digər müddəalarına əsaslanan prinsipləri ( məs: pensiya təminatı, icbari tibbi sığorta, dövlət qulluqçuları üçün nəzərdə tutulmuş təminatlar və s.) saxlanılmaqla onların dövlət qulluğunun xüsusi növünə daxil edilməsi;

- Bu halda, təhsil işçiləri ilə əmək münasibətlərini tənzimləyən qanunvericilik aktı müəyyənləşdirilməli, əmək haqqının ödəlməsi sisteminə yenidən baxılmalı, müəllimlərə də dövlət qulluqçuları üçün nəzərdə tutulmuş təminatlar tətbiq olunmalıdır:
- dövlət qulluqçusunun (təhsil işçisinin) layiqli həyat səviyyəsini təmin edən
- dövlət məvacibi və digər ödənişlər;
- lazımi qulluq şəraiti;
- haqqı ödənilən məzuniyyət;
- dövlət qulluqçusunun (təhsil işçisinin) icbari tibbi sığortası;
- müvafiq istiqamət üzrə əlavə təhsilalma;
- təhsil müəssisəsi ləğv edldikdə və ya ştat ləğv olunduqda. vəzifə maaşına və
- ixtisasına uyğun vəzifə tutmaqda ustunluk;
- pensiya təminatı və dövlət sosial sığortası;
- icra edilən vəzifə öhdıliklərinin xarakteri nəzərə alınmaqla nəqliyyatdan
- güzəştli istifadə;
- vəzifə öhdıliklərinin icrası ilə əlaqədar ona və ailə üzvlərinə qarşı törədilən
- zorakılıqdan, hədələrdən və təhqirlərdən müdafiə;
- qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, yalnız öz razılığı ilə aşağı
- maaşlı vəzifəyə keçirilmə;
- müvafiq dövlət orqanının və təhsil müəssisə rəhbərliyinin tərkibinin dəyişməsi;
- təhsil müəssisəsində çalışan dövlət qulluqçuları ilə bağlanmış əmək müqaviləsinin ləğvi üçün əsas ola bilməz.

Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2011-ci il tarixli 1439 nömrəli Sərəncamında təhsil müəssisələrində işin dövlət qulluğunun xüsusi növünə aid edilməsi göstərildiyindən verilən təkliflərdə təhsil müəssisələrində görülən işlərdən hansının dövlət qulluğuna aid edildiyinin, ona uyğun vəzifələrin təsnifatının da müəyyənləşdirilməsinin, eyni zamanda təhsil müəssisələrinin kateqoriyalara bölünməsinin və həmin müəssisələrdəki vəzifələrin müvafiq təsnifatlar üzrə təsnifatının (inzibati və yardımçı) müəyyənləşdirilməsinin aparılması, hər bir təsnifat üzrə ixtisas tələbləri və vəzifədə yüksəliş şərtlərinin dəqiq işlənərək hazırlanmasının vacib olduğu göstərilmişdir.

**8.** «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun 29 və 30-cu maddələrinin müvafiq bəndlərinin, «Təhsil haqqında» Azərbaysan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaysan Respublikası Prezidentinin 05.09.2009-su il tarixli, 156 nömrəli Fərmanının 2.3-cü bəndinin, Nazirlər Kabinetinin «Ümumtəhsil məktəbinin nümunəvi Nizamnaməsi»nin təsdiq edilməsi barədə 13.01.2011-si il tarixli, 5 nömrəli Qərarının 5.4-cü bəndinin israsını təmin etmək məqsədilə Təhsil Nazirliyinin «Azərbaysan Respublikasının Təhsil Nazirliyi sisteminin nomenklaturası» barədə 26.08.2008-si il tarixli, 1019 nömrəli əmri ilə təsdiq olunmuş «Azərbaysan Respublikası Təhsil Nazirliyinin mərkəzi aparatına və sisteminə daxil olan işçilərin vəzifə nomenklaturasının siyahısı»nda qismən dəyişiklik edilmişdir. Bununla bağlı ümumtəhsil məktəbləri və məktəbdənkənar təhsil müəssisələrinin direktorları, məktəbəqədər təhsil müəssisələrinin müdiri vəzifələri Nazirliyin uçot nomenklaturasından çıxarılaraq nazirin əmri ilə əmək müqaviləsi bağlanan və ya ləğv edilən nomenklaturaya salınmışdır. Lakin həmin əmrdə ümumtəhsil məktəblərinin, məktəbdənkənar müəssisələrin direktorlarına və məktəbəqədər təhsil müəssisə müdirlərinə ƏM-nin 186-sı maddəsinin 2-si hissəsinin “ç” bəndi istisna olmaqla, digər intizam tənbehlərinin tətbiqi yerli təhsili idarəetmə orqanları tərəfindən həyata keçirilməsi, bu zaman

əmək qanunverisiliyinə uyğun müəyyənləşdirilmiş müddət və tələblərin gözlənilməsi, sənədləşmə işinin düzgün təşkilinin təmin edilməsi tapşirilmışdır.

Eyni zamanda yerli təhsili idaretmə orqanlarına əmək münasibətlərinin tənzimlənməsi zamanı Təhsil Nazirliyinin 26.08.2008-si il tarixli, 1019 nömrəli əmri ilə təsdiq edilmiş Qaydaların tələblərinə siddi riayət etmələri, nomenklaturada aparılmış dəyişikliklərlə əlaqədar ümumtəhsil məktəbləri və məktəbdənkənar təhsil müəssisələrinin direktorlarının, məktəbəqədər təhsil müəssisələrinin müdirlərinin şəxsi işlərini və əmək kitabçalarını Nazirliyin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim etmələri, nomenklaturada aparılmış dəyişikliklərlə əlaqədar tətbiq olunmuş intizam tənbehi barədə əmrin bir nüsxəsini şəxsi işə əlavə olunması üçün təxirəsalınmadan Təhsil Nazirliyinə göndərmələri tapşırılmışdır.Əmrin icrası ilə bağlı respublikanin bütün ümumtəhsil məktəbləri və məktəbdənkənar təhsil müəssisələrinin direktorlarının, məktəbəqədər təhsil müəssisələrinin müdirlərinin şəxsi işləri yeniləşdirilərək mövcud tələblərə uyğun hazirlanmaqla əmək kitabçaları ilə birlikdə Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsində toplanmışdır.

**9.** Təhsil Nazirliyi sisteminə daxil olan dövlət qulluğu orqanlarında (Təhsil Nazirliyinin mərkəzi aparatında 6-cı təsnifat və yerli təhsili idarəetmə orqanlarında 7-9-cu təsnifat inzibati vəzifələr) mövcud inzibati vəzifələr, onların ştat sayı, vakant vəzifələr, vəzifənin daxil edildiyi təsnifat, vəzifə maaşı, qulluq funksiyaları, kadrın təhsili, iş stacı, kompüter və dil biliklərini əhatə edən vəzifənin tutulması şərtlərini müəyyənləşdirən “Təşkilati-hüquqi sənədlər və inzibati vəzifələr haqqında məlumat toplusu” nazirliyin struktur bölmələrinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsi və yerli təhsili idarəetmə orqanlarının rəyləri öyrənilməklə düzəlişlər aparilmış, vakant vəzifələrin tutulması zamanı istifadə məqsədilə məlumat bazasına daxil edilməst üçün elektron variantı ilə birlikdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilmişdir.

**10.** Nomenklaturaya edilmiş dətişikliklə bağlı ümumtəhsil məktəbləri direktorlarının işə qəbulunun şəffaf və obyektiv keçirilməsini təmin etmək məqsədilə mərkəzləşdirilmiş qaydada test imtahanlarının keçirilməsi qərara alınmışdır. Bu məqsədlə təhsil qanunvericiliyi, idarəetmə, müasir qiymətləndirmə mexanizmləri, kurikulum, əmək qanunvericiliyi və s.bağlı test sualları hazirlanaraq kompyüterdə yerləşdirilmişdir. Məktəb direktoru vəzifəsinə namizədlərin işə qəbulu zamanı həmin test bazsından istifadə olunmuşdur.

08 aprel 2011-ci il tarixdə 58 vakant ümumtəhsil məktəbinin direktoru vəzifəsinə namizəddən yalnız 28-i test imtahanından, nazir və aidiyyəti struktur bölmə rəhbərlərindən ibarət komissiyadan müsahibədən keçərək vəzifəyə təyin edilmələri barədə əmrlər hazırlanmış və yerli təhsili idarəetmə orqanlarına göndərilmişdir. 27 may 2011-ci il tarixdə isə məktəb direktoru vəzifəsinə namizəddən 20 nəfər təqdim olunduğu vəzifəyə təyin edilmişdir.

**11.** 1991/92-2010/2011-ci tədris illərində Şuşa, Xızı, Ağdam, Qubadlı, Xocalı, Zəngilan,Oğuz, Kürdəmir, Laçın, Füzuli, Hacıqabul rayonlarının ümumtəhsil məktəblərində işə qəbul olunmuş 6889 pedaqoji işçi barədə məlumat və diplomların surəti toplanmış, Şuşa rayonundan 146 nəfərin, Xızı rayonunda 228 nəfərin, Zəngilan rayonunda 567 nəfərin, Oğuz rayonundan 606 nəfərin, Hacıqabul rayonundan 525 nəfərin diplomları ekpertizadan keçirilmiş və həç birinin saxta olmadığı müəyyənləşdirilmişdir. Ağdam rayonunda 1568 nəfərdən 11-nin, Qubadlı rayonunda 495nəfərdən 2-nin, Xocalı rayonunda 216 nəfərdən 1-nin, Kürdəmir rayonunda 991 nəfərdən 2-nin, Laçın rayonunda 621 nəfərdən 2-nin, Füzuli rayonunda 926 nəfərdən 3-nün təhsil sənədinin saxta oıduğu aşkarlanmışdır.

**12.** Azərbaycan Respublikası Prezidentinin 04 sentyabr 2007-ci il tarixli 2373 №-li Sərəncamı ilə təsdiq olunmuş « Ən yaxşı ümumtəhsil məktəbi» və «Ən yaxşı müəllim» mükafatının təsis edilməsi ilə bağlı keçirilmiş müsabiqədə kimya fənni üzrə nəzarətçi kimi iştirak edilmişdir.Kimya müəllimlərinin keçdikləri dərslərin dinlənirək müzakirə olunması, rəylərin ümumiləşdirilərək qiymətləndirilmilməsində obyektivliyin təmini və prosesin düzgün tənzimlənməsi üçün şəraitin yaradılmasına nəzarət edilmişdir.

**13.** 2011-ci ilin oktyabr-noyabr aylarında bütün rayon təhsil şöbələrindən məktəb şəbəkəsi ilə bağlı hesabatlar qəbul edilmiş, rayonda kadra olan tələbat, müəllim /şagird nisbəti,

ümumtəhsil məktəblərində şagird və müəllim sayının dəyişməsi səbəbləri araşdırılaraq, rəy bildirilmişdir. Eyni zamanda,rayonların ümumtəhsil məktəblərindən məktəbdəki ştatlı, əvəzçi, saathesabı müəllimlərin sayını, müəllim/şagird nisbəti, sinif komplektlərinin pillələr üzrə sayını, kadrların təhsil səviyyəsi üzrə bölgüsünü, işə qəbul olunan və işdən çıxarılan kadrların sayını, onların dərs saatına, cinsinə, yaşına görə bölgüsünü, ixtisasartırma və yenidənhazırlanma təhsilinə cəlbini, təyinatlə iş yerinə gəlmiş kadrlar barədə məlumatları əhatə edən kadrların faktiki tərkib quruluşu və kadrlara olan real tələbat barədə hesabatlar toplanılmışdır. Kadrlara olan real tələbat barədə hesabat forması ümumi təhsil məktəblərində tədris olunan fənlər üzrə ştatlı, əvəzçi,saathesabı qaydasında işləyən müəllimlər, hər hansı fənn üzrə təyinat yerinə gələn və kadra olan tələbat barədə məlumatların əldə edilməsi, problemlərin aradan qaldırılması üçün atılacaq addımların istiqamətini müəyyənləşdirməyə imkan verir.

**14.** 2011-ci ilin hər yarımilliyində Nazirliyin mərkəzi aparatında çalışan dövlət qulluqçularının sayı, ixtisas dərəcələri, yaşa, cinsə və qulluq stacına görə tərkibi analiz edilərək hazırlanmış hesabat Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Nərimanov şöbəsinə təqdim olunmuşdur.

**15.** Nazirliyin mərkəzi aparatında çalışan dövlət qulluqçularının qulluq stajından asılı olaraq əmək haqlarına əlavələrin hesablanaraq ödənilməsi üçün hər ay müvafiq təqdimat və əmrlər hazırlanmışdır.

**16.** 2011-cu ildə şöbəyə 7504 ərizə, 3230 məktub, 490 teleqram və faks daxil olmuşdur ki, onlardan 1315 əmrin hazırlanmasında, 2560 - dan artıq ərizənin və 2720 məktubun icrasında iştirak edilmişdir. Təhsil Nazirliyinin “Qaynar xətt”xidmətindən daxil olmuş 64 müraciət araşdirilmış və qaldırılmış məsələnin həlli istiqamətində tədbirlər görərək ərizəçiyə cavab göndərilmiş, sorğulara normativ hüquqi sənədlərə əsaslanmaqla cavab verilmişdir.

**17.** 2011-ci ildə təhsil sistemində çalışmış 255 işçiyə «Əmək veteranı» kitabçası verilmişdir.

Azərbaycanın təhsil sisteminin inkişafında əvəzedilməz yeri olan pedaqoji kadrların əlavə təhsilinin həyata keçirilməsində seçilmək, uğur qazanmaq üçün rəqabət mühiti yaranmışdır. Müəssisələr arasında tədris-maddi bazasına, kadr potensialına görə rəqabət apara biləcək müəssisələr çoxdur. Bu gün təhsil sistemində çalışan bütün kadr potensialını auditoriya şəraitində əlavə təhsilə cəlb etmək qeyri-mümkündür. Amma təhsilini artırmadan, təhsil sistemindəki yeniliklərdən xəbər tutmadan uğur qazanmaq olmaz. Əlavə təhsilin çevik formalarını axtarıb tapmaq, dayaq məntəqələrinin fəaliyyətini canlandırmaq, metodik korpusun təhsil müəssisələrində çalışanlarla əlaqələrini genişləndirmək, distant təhsil üçün əməkdaşlıq mühiti yaratmaq və s. əlavə təhsil sahəsində çalışan hər bir əməkdaşın qarşısında duran problemdir. Əlavə təhsil sahəsində icraya nəzarətin gücləndirilməsi bu fəaliyyətin kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılması üçün ən zəruri şərtdir.

Nəticə olaraq bildirmək istərdik ki, il ərzində ölkə səviyyəsində təhsil nailiyyətlərini yüksəltmək məqsədilə inkişaf etdirilə biləcək sahələrin müəyyənləşdirilməsi üçün təhlillər aparılmış, təhsil siyasəti və strategiyasının müəyyənləşdirilməsi məqsədilə, həyata keçirilmiş və hazırda həyata keçirilən islahatlar barədə Hesabatlar, təhsil sektorunun ayrı-ayrı sahələri üzrə inkişaf proqramları, ölkədə təhsilin inkişafı ilə əlaqədar beynəlxalq və yerli qeyri-hökümət təşkilatların Hesabatları təhlil edilmiş və müvafiq təkliflər hazırlanmışdır.